**AZƏRBAYCAN RESPUBLİKASININ**

**İNSAN HÜQUQLARI ÜZRƏ**

**MÜVƏKKİLİ (OMBUDSMAN)**

**İşgəncələrin qarşısının alınması üzrə**

# MİLLİ PREVENTİV MEXANİZM

Görmə qabiliyyəti tam məhdud şəxslər üçün

**VƏSAİT**

**Hörmətli oxucu,**

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) olaraq sizi salamlayıram.

Rəhbərlik etdiyim bu təsisatın vəzifəsi ölkəmizdə insan hüquqlarının müdafiəsi üzrə ixtisaslaşmış milli insan hüquqları təşkilatı olaraq müxtəlif əhali qruplarının, o cümlədən əlilliyi olan, müvafiq müəssisələrdə təhsil alan şəxslərin hüquqlarının keşiyində durmaqdır.

Sizin diqqətinizə təqdim edilən bu nəşr təsisatımız, onun səlahiyyətləri, Ombudsmanın İşgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Mexanizm qismində fəaliyyəti haqqında ilkin və qısa məlumatları özündə əks etdirir.

Sizə müraciət edərək, bu vəsaitlə tanış olmağa, öz hüquqlarınızı öyrənməyə və onların qorunması üçün ehtiyac yarandığı təqdirdə bizə necə müraciət edə biləcəyinizi bildirirəm.

Azərbaycan dövlətinin, o cümlədən Ombudsman təsisatının həmişə sizin yanınızda olduğunu unutmayın.

**Səbinə Əliyeva,**
**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman),**
**hüquq üzrə fəlsəfə doktoru**



## Ombudsman kimdir?

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Azərbaycan Respublikasının ərazisindəki bütün şəxslərin hüquqlarını qoruyur və pozulan hüquqlarını bərpa edir.

Ombudsman müstəqildir və dövlət qurumları, qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatlarla əməkdaşlıq edir.

Ombudsman Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin insan hüquqlarının pozulmasına dair şikayətlərinə baxır.

## Milli Preventiv Mexanizm nədir?

Eyni zamanda, Ombudsman BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını həyata keçirir. Bu mexanizm insanlarla rəftar və onların saxlanma şəraitinin öyrənilməsi üçün şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə başçəkmələri nəzərdə tutur. Azərbaycan Ombudsmanı və onun Milli Preventiv Qrupunun üzvləri belə müəssisələrə, o cümlədən uşaqların qaldığı müəssisələrə - internat məktəblərinə, uşaq evlərinə, sosial xidmət müəssisələrinə və digər yerlərə səfərlər edir, buradakı insanlarla görüşür, onların hüquqlarının təmini vəziyyətini araşdırır.

## Hansı məsələlər araşdırılır?

Ombudsman və onun əməkdaşları müəssisəyə gələrkən aşağıdakı məsələləri araşdırır:

- Rəftar məsələləri (şəxslərin işgəncə və insan ləyaqətini alçaldan cəza və rəftara məruz qalıb-qalmaması);
- Saxlanma şəraiti (şəxslərin qaldığı yerlərdə şərait, sanitariya və şəxsi gigiyena, geyim, qidalanma, içməli su və digər məsələlər);
- Hüquqların təmini (təhsil, tibbi yardım, bağlama və sovqat almaq, ailə üzvləri ilə görüş və telefonla danışmaq və digər hüquqlar).

## Başçəkmələr və görüşlər necə keçirilir?

Başçəkmə zamanı şəxslərlə onların öz istəyi ilə və ya təsadüfi seçim əsasında konfidensial görüşlər keçirilir. Həmin görüşlər zamanı Ombudsmana ünvanlanmış müraciətlər (şikayət, təklif və xahişlər) qəbul edilir. Mümkün olduğu halda müraciətlər yerində təmin olunur.

## Kim Ombudsmana şikayət bildirə bilər?

Hər bir kəs, o cümlədən də uşaqlar və onların qanuni maraqlarını müdafiə edən şəxslər Ombudsmana müraciət edə bilər. Ehtiyac olduqda şikayətlər gizli saxlanılır. Şikayətlərlə bağlı Ombudsman tərəfindən dövlət qurumlarına müraciətlər olunur.

## Bizə necə müraciət etmək olar?

Email yazmaqla: apparat@ombudsman.az

Zəng etməklə: (012) 493 74 22

Həftənin bütün günləri 24 saat fəaliyyət göstərən Çağrı Mərkəzi: 916

Müraciətlər rəsmi saytımız (www.ombudsman.az) üzərindən, eləcə də aşağıdakı sosial şəbəkə hesablarımız vasitəsilə göndərilə bilər:

Facebook: ombudsmanazerbaijan

Instagram: ombudsman_azerbaijan